# Azərbaycanlı musiqiçi Avropa səhnəsində

**Bu yazımda 1997-ci ildə dünyaya göz açmış, laylası tar, piano ilə çalınan Aytəndən danışacağam. Zamanla dahi musiqiçilərin gənc davamçısına çevrilən, məşhurlaşmağa başlayan, beynəlxalq müsabiqələr laureatı, "Qran Pri" mükafatçısı, Prezident təqaüdçüsü kimi Azərbaycan Dövlət Konservatoriyasını fərqlənmə diplomu ilə bitirən, hazırda Almaniyada magistratura səviyyəsində təhsil alan, səhnəmizdə yeni parlayan Aytən İbrahimovadan.**



...Hər şey uşaqkən atasının ona aldığı oyuncaqdan başladı. Valideynləri musiqiçidir. Onlar evdə məşq edəndə qızcığaz ağlayırmış. Sussun deyə, atası ona skripka alıb.

– Niyə ağlayırsanmış? Xatırlayırsanmı?

– Səbəbini deyə bilmərəm, amma bu, atam tarda muğam çalanda olurmuş.

Onun hisslərinə hakim kəsilən Azərbaycan muğamları, Üzeyir musiqisi duyğusallığından xəbər verir. Balaca skripka onun ən sevimli oyuncağına çevrilir. Notları tanımadığı vaxtlarda, hətta, evdəki pianonu da dilləndirir, oyuncaq skripkası ilə öz aləmində guya nələrisə çalırmış. Ailəsi belə qərara gəlir ki, yeganə qız övladı skripka ifaçısı olsun.

Aytəni Bülbül adına Orta İxtisas Musiqi Məktəbinə qoyurlar. Beşiyi başında çalınan, anasının laylaları ilə qanına, canına hopan musiqinin dərinliklərinə baş vurur. Musiqi Aytəni, Aytən musiqini ovsunlayır. Notları öyrənməklə müsabiqələrə qatılmağının arası çox çəkmir. II sinifdə Kövkəb Səfərəliyevanın yubileyinə həsr olunmuş Gənc ifaçıların IV festivalında iştirak edir. "Tərifnamə" alır. İlk müvəffəqiyyəti balaca Aytəni sənətin incəliklərini öyrənməyə daha da ruhlandırır. Qələbəsinin sevinci ona uğur dalınca uğur gətirir. Ustadına "əhsən" deyirlər. Əməkdar müəllim Fatimə İdyatulinanın sinfində dərs alması onun musiqi sənətinə mükəmməl yiyələnməsində möhkəm təməl olur.

Heydər Əliyevin 85 illik yubileyi ilə əlaqədar 2008-ci ildə gənc ifaçıların I respublika müsabiqəsində iştirak edir. On bir yaşlı balaca ifaçı müsabiqədə birinci yeri tutur və laureat adını qazanır. İfası ilə tanınmış musiqiçilərin diqqətini cəlb edir. Valideynləri də onun mahir skripka ifaçısı olmasını çox arzuladıqlarından ona daha çox vaxt ayırırlar. Zəhmət öz bəhrəsini verir. 2009-cu ildə Cappelhausda ilk solo konserti ilə çıxış edən Aytən "İstedadlı uşaqlar nominasiyası" üzrə qalib gələn 10 nəfərdən biri olur. Uğurlu çıxışına görə ölkə Prezidenti tərəfindən qiymətli hədiyyə ilə təltif olunur. Kiçik yaşlardan müsabiqələrdə iştirak etmək vərdiş halına, qalib olmaq adətə çevrilir. İllər ömür çələnginə rəngbərəng naxış vura-vura həyatında solmayan izlər qoyur. Auditoriyası böyüyür, çalğısının sədası çox uzaqlara yayılır.



2010-cu ildə Nazim Əliverdibəyov adına V ümumşəhər müsabiqəsində orta yaş qrupunda çalanlar arasında ifası yüksək qiymətləndirilərək "Qran-Pri" mükafatına layiq görülür. Xalq artisti Rauf Abdullayevin rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestri ilə çıxış edir və Kamil Sen-Sansın "Skripka və orkestr üçün konsert"ini ifa edir. Dəfələrlə Teymur Göyçayevin rəhbərliyi altında Q.Qarayev adına Dövlət Kamera Orkestri ilə solo-konsert verir.

2012-ci ildə Aytənin artıq 15 yaşı vardı. O, yeniyetmə və gənclər arasında tanınmış simaya çevrilmişdi. Bakıda ilk dəfə İslam dövlətləri arasında keçirilən I beynəlxalq müsabiqədə iştirak edərək qalib gəlir. Həmin ildə Moskvada V.Spivakovun təşkilatçılığı ilə "Moskva dostları qarşılayır" beynəlxalq festivalında iştirak edir.

2013-cü ildə Belçikada keçirilən "Bravo" VI beynəlxalq müsabiqənin iştirakçısı olur və 15 dövlət arasında birinci yeri tutaraq Azərbaycan Bayrağını qaldırır.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş gənc ifaçıların II Ümumrespublika müsabiqəsində Aytən qalib adını təzələyir, ikinci dəfə "Qran-Pri" mükafatına layiq görülür.

A.İbrahimova dünya şöhrətli musiqiçilərdən ustad dərsləri alır. Bu dərslər, bu mənimsəmələr onu yüksək zirvələrə doğru aparır. Məşhur dirijor Kiril Karabitsin təklifi ilə P.Çaykovskinin "Skripka və orkestr üçün konsert"ini solo ifa edir. Dirijorlar Orxan Həşimov (Moskva), Azərbaycanın Əməkdar artisti Elşad Bağırov (Türkiyə) Aytənlə səhnəni bölüşürlər. O, Fransada, Almaniyada, Polşada, Hollandiyada, Danimarkada, Belçikada, İspaniyada, Qətərdə, Gürcüstanda və Ukraynada qastrol səfərlərində Azərbaycanı da layiqincə təmsil edir.

2016-cı ildə Azərbaycan Dövlət Filarmoniyasında "Gənclərə dəstək" layihəsi ilə verdiyi konserti də yaddaşlarda dərin iz qoydu. Konsert gənc Aytənin solo ifalarından ibarət idi. O, Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə Vivaldinin "Dörd fəsil" əsərini ifa etdi. Əsərin bütövlükdə bir arada çalınması professionallar və musiqisevərlər tərəfindən yüksək qiymətləndirildi.

Müxtəlif açılış mərasimləri və simpoziumların yaraşığı olan istedadlı gənc skripkaçı Aytən İbrahimovanın ən böyük uğuru Prezident İlham Əliyevin Sərəncamına əsasən, beynəlxalq müsabiqənin laureatı olduğuna görə heç bir test və qabiliyyət imtahanı vermədən Ü.Hacıbəyli adına BMA-nın tələbəsi olmasıdır. Musiqi sahəsində xüsusi istedadı olan gənc kimi daha bir böyük qələbəsi isə Prezidentin Fərmanı ilə adının Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılması, Prezident təqaüdünə layiq görülməsidir.

Oyuncaq skripkaya sevgisi ilə başlayan sənət yolunda atdığı uğurlu addımlar, Prezident tərəfindən ona verilən yüksək qiymət Aytəni yeni zirvələr fəth etməyə səsləyirdi. 2019-cu ildə Almaniyanın Folkvanq İncəsənət Universitetinin magistraturasına daxil oldu. Universitetin Dortmund şəhərində böyük bir kampusu var (Orkestr mərkəzi–Orchesterzentrum). Aytən burada tanınmış musiqiçilər və dirijorlarla eyni səhnəni paylaşaraq konsertlərdə iştirak edir. Məhz fəallığı ilə diqqəti cəlb edən gənc azərbaycanlı magistr buradakı dirijorlar tərəfindən müxtəlif layihələrə dəvət alaraq festivallarda iştirak edir. Məsələn, İtaliyada Brixen Classic–2022 festivalına birinci skripkaçı kimi dəvət almış və iştirak etmişdir. Hazırda təhsillə yanaşı, Bohum simfonik orkestrində (Bochumer Symphoniker) təcrübəçi kimi birinci skripkaçı olaraq işləyir.

Aytənin solo konsertlər verərək böyük tamaşaçı kütləsinin diqqətini cəlb etməsi, alqışlarla qarşılanması, çıxış etdiyi səhnənin gül-çiçəyə qərq olması artıq vərdişə çevrilib. Bu, onu sənət yolunda inamla addımlamağa daha da ruhlandırır. İlk musiqi təhsilini almağa başladığı Bülbül adına musiqi məktəbindən başlayıb, Musiqi Akademiyasının böyük zalı, Azərbaycan Dövlət Filarmoniyasının səhnəsi, Kirxa, Kapellhauz alman kilsəsi Aytənin sənətini sevgi ilə nümayiş etdirdiyi peşəkar səhnələrdir. Onun skripkasının səsi bu gün Almaniyadan dünyaya yayılır. O bu ölkənin Kamera musiqisi zalında istər kvartet, istərsə də fortepianonun müşayiəti ilə bir sıra xeyriyyə konsertləri verib. Azərbaycan və Avropa musiqilərini səsləndirib. Onun məqsədi Azərbaycan musiqisini dünyaya daha çox tanıtmaqdır.

Bu da hələlik sonuncu uğuru-19 yanvar 2023-cü il. Aytən balamız qərənfillər düzülmüş və böyük bir Azərbaycan Bayrağının dalğalandığı Dortmund Orkestr Mərkəzinin səhnəsində Almaniyada yaşayan azərbaycanlıların və almanların qarşısında 20 Yanvar şəhidlərinin xatirəsini yad edən xeyriyyə konserti verib. Xalqına, millətinə, Vətəninə sevgisi onu, bir an belə, tərk etmir. Almaniyada yaşayan soydaşlarımızdan jurnalistlər–Yeganə Əmiraslan, Valeh Rəhimov, həkim Aysel Əlimova və başqaları gənc musiqiçi A.İbrahimovanın bu addımı atmasından, məhz Avropanın məşhur bir ölkəsində milli matəm günümüzü anmasından, səsimizi skripkasının dillərində dünyaya çatdırmasından məmnunluqla bəhs etdilər. Həmvətənlərimiz onun ustad çalğısından, ifaçılıq qabiliyyətindən, səhnə mədəniyyətindən və həmvətənlərinə qaynayıb-qarışmasından, Vətən təəssübkeşliyindən ağız dolusu danışdılar.

Aytənin planları çoxdur, yaxın gələcəkdə həyata keçirəcəyi layihələri var. O hazırda ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş layihə üzərində işləyir.

Sağ ol, Aytən. Prezident təqaüdçüsü yola məhz belə davam etməlidir.

**Rəhilə MİSİRXANLI,**
**"İlahiyyat" jurnalının redaktor müavini**